**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLIƏKBƏR RADPUR ƏLINCƏQ**

# MÜASİR CƏNUBİ (İRAN) AZƏRBAYCAN ŞEİRİ (1960-2005)

**5716.01 - Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I - 2014**

**Dissertasiya işi Bakı Düvlət Universitetinin Mğasir Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** ***filologiya ğzrə elmlər doktoru, professor***
**Almaz Əli qızı MƏMMƏDOVA**

**Rəsmi opponentlər:** ***filologiya üzrə elmlər doktoru, professor***
**Cəlil Qərib oğlu NAĞIYEV**

***filologiya üzrə elmlər doktoru***
**Rəhim Nadir oğlu ƏLİYEV**

**Aparıcı mğəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_24___» __02__ 2014-cü il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ____________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru, professor: T.H.Hüseynov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** "Müasir Cənubi (İran) Azərbaycan şeiri (1960-2005)" mövzusunda qələmə alınan bu dissertasiya müəyyən səbəblər üzündən tədqiq olunmayan Cənubi Azərbaycan ədəbiyyatı haqqında yeni sözdür. Çox qədim tarixi olan Azərbaycan xalqı zəngin və müxtəlif sahəli xalq yaradıcılığına sahibdir. Istər şifahi ədəbiyyat, istərsə də yazılı ədəbiyyat xalqın məişətinin və ruhunun göstəricisidir.

Ədəbiyyat xalqın tarixinin, mədəniyyətinin, mənəviyyatının təcəssümü olması səbəbilə, qloballaşan dünyada millətini tanıtdırmaq, öz sözünü deyə bilmək üçün xalqın ədəbiyyatını, ədəbiyyat tarixini araşdırmaq önəmli məsələdir. Bu səbəbdən də zəngin tarixə sahib Azərbaycan ədəbiyyatı və şeiri haqqında tədqiqat aparıb, onun tarixini, məzmun və mövzularını, janr rəngarəngliyini tanıtdırmaq, danılmaz bir borc sayılır. Belə ki, hər bir xalqın ədəbiyyatını, habelə mədəniyyətini tanımadan, o xalqı tanımaq, onun inam və düşüncələri ilə tanış olmaq mümkün deyil. Bu məqsədlərə nail ola bilmək üçün qədim tarixə və kökə mənsub Azərbaycan ədəbiyyatı haqqında tədqiqatlar, tənqidi araşdırmalar aparmaq, həmin xalqın bədii təxəyyülünün inkişaf mərhələlərinin xarakterik cəhətlərini araşdırmaq lazımdır. Azərbaycanın cənubunda yaranan ədəbiyyatın diqqəti cəlb edən belə mərhələlərindən birini də 1960-2005-ci illərdir. Çox təəssüflər olsun ki, Cənubi Azərbaycanın müasir şeirinin həmin mərhələsi haqqında xüsusi bir araşdırma aparılmamışdır. Göstərilən çatışmazlıq təkcə 1960-2005-ci illər Azərbaycan şeirinə aid deyil.

Ümumiyyətlə, Cənubi Azərbaycanda Pəhləvi rejiminin siyasəti nəticəsində bu günə qədər şifahi və yazılı ədəbiyyat sahəsində tədqiqat işləri mövcud deyil. Çünki həmin rejim zamanı bütün vasitələrdən istifadə edilərək Azərbaycan dilinə xor baxılmış, bu dil millətin doğma və etnik dili kimi deyil, köçərilərin dili kimi qələmə verilmiş, hətta Cənubi Azərbaycan haqqında qondarma tarix belə yazılmışdır. Ancaq yanlış yolda olan bəzi ziyalıların olmasına baxmayaraq, M.Şəhriyar, Səhənd, Sahir kimi bir çox Cənubi Azər-

baycan şairləri Azərbaycan türkçəsinin dirçəlməsində mühüm rol oynamışlar. M.Hüseyn Şəhriyarın bu şeiri dediklərimizi bir daha təsdiq edir:

*Türkün dili tək sevgili, istəkli dil olmaz,*
*Özgə dilə qatsan, bu əsil dil, əsil olmaz.* [1]

Həmin sahədəki mövcud boşluğu az-çox dolduran Azərbaycan Respublikasında Cəfər Xəndan, Almaz Əliqızı, Sabir Əmirov, Hökümə Billuri, Nazim Rizvan, Sədaqət Məmmədova, Esmira Şükürova, İran Azərbaycanında isə Məhəmmədəli Fərzanə, Mirhidayət Hesari, Məhəmmədəli Neqabi kimi yazıçı və tədqiqatçıların qələmə aldıqları dissertasiya, məqalə və monoqrafiyalardır.

Bu araşdırmalar arasında filologiya elmləri doktoru, professor Almaz Əliqızının əsərləri də özünəməxsus yer tutur. Onun qələmə aldığı "Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər)" adlı doktorluq dissertasiyasına bunun bariz nümunəsidir. Həmin elmi araşdırmada göstərilən illərdə Cənubi Azərbaycanda baş verən ic-timai-mədəni proseslərin ədəbiyyatda ideya-bədii əksi sistemli şəkildə izlənilmişdir.

Filologiya elmləri doktoru, professor Almaz Əliqızının doktorluq dissertasiyası özünün elmi tutumuna, problematikasının genişliyinə, öyrənilən məsələlərdə irəli sürülüb əsaslandırılan fikirlərin aydınlığına və alimin vətəndaşlıq mövqeyinə görə diqqəti cəlb edir.

Fəal qələm sahiblərindən olan filologiya elmləri doktoru Sabir Əmirovun "Cənubi Azərbaycan milli demokratik ədəbiyyatı (1941-1990)" adlı doktorluq dissertasiyası da həmin dövr ədəbiyyatında demokratik ideyaların milli məzmunda ifadəsi məsələlərinə həsr edilmişdir.

Dosent Sədaqət Məmmədovanın dissertasiyası Cənubi Azərbaycanda M.Ə.Sabir poeziya ənənələrinin tanınmış nümayəndəsi Mirzə Hüseyn Kəriminin satira yaradıcılığının təhlilinə həsr edilibsə, Hökümə Billuri, Nazim Rizvan, Esmira Şükürova və Elman Quliyevin dissertasiyaları ustad şair Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığının təhlilinə aiddir.

Adları çəkilən alimlərin həmin dissertasiyalarının, demək olar

---

[1] سلام الله جاوید. آذربایجان فولکلوروندان نمونه لر. بیرینجی جلد.....4,s

ki, hamısı monoqrafiya kimi kitab şəklində nəşr edilmişdir. Bundan başqa onların və digərlərinin müasir Cənubi Azərbaycan ədəbiyyatına dair çoxlu elmi məqalələri və kitabları da çapdan çıxmışdır.

Belə xüsusi araşdırmalarla yanaşı, ayrı-ayrı müntəxabatlarda və ensiklopedik nəşrlərdə də Cənubi Azərbaycanda yaranan ədəbiyyata yer verilmişdir. Buna misal olaraq “Min beş yüz ilin oğuz şeiri” kitabını, Cənubi Azərbaycanda Himmət Sahbazi tərəfindən qələmə alınan və çap etdirilən “Nəqde şeire müasir” (“Müasir şeirin tənqidi”) kitabını və.s.göstərmək olar. Qeyd edək ki, H.Şahbazinin kitabında müasir Cənubi Azərbaycan şerinin nümayəndələrindən dörd şairin, o cümlədən adları çəkilən Sahir, Səhənd, Barışmaz, habelə Səhər xanımın əsərləri də araşdırılmışdır. Bunlardan başqa “Məfaxer-e Azərbaycan” müəllifi Məhəmməd Deyhimi – 2 cilddə; “Soxənvəran-e Azərbaycan” (“Azərbaycan ədibləri”) – Qətrandan Şəhriyara qədər. Əziz Dövlət Abadi – 2 cilddə; “Ədəbiyyat ocağı” – toplayan Yəhya Şeyda – 3 cilddə; “Cənubi Azərbaycan ədəbiyyatı müntəxəbatı – Almaz Əliqızı; “Məfaxer-e Azərbaycan”. (“Azərbaycanın fəxrləri”) - Əqiqiye Bəxşayeşi 2, habelə 3 cilddə; “Azərbaycan ədəbiyyatına bir baxış” - doktor Cavad Heyət – 2 cilddə; Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. kitablarında bir çox Cənubi Azərbaycan şairləri haqqında bioqrafik məlumatlar verilmişdir.

Göründüyü kimi, Cənubi Azərbaycan ədəbiyyatı və şeiri haqqında bir sıra tədqiqatlar aparılsa da, onların tarixi baxımdan fərqli olduğu aydın şəkildə nəzərə çarpır. Ancaq 1960-2005-ci illərdə Cənubi Azərbaycanda yaranan poeziyanın bütün əsas nümayəndələri və xüsusilə onların 1960-2005-ci illərdə qələmə aldıqları çoxsaylı əsərləri sənətkarlıq və mövzu baxımından indiyədək elmi təhlilə çəkilməmişdir. Bu dissertasiya işinin əsas məziyyəti və mövzusunun aktuallığı da ondan ibarətdir ki, Cənubi Azərbaycan şeirinin keçən 45 illik tarixi təhqiqatın fəsil və bölmələri daxilində sistemli şəkildə tədqiq və təhlil olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın adından göründüyü kimi, tədqiqatın obyekti 1960-2005-ci illər Cənubi Azərbaycan şeiridir. Tədqiqata cəlb olunmayan və ümumilikdə təhlidən kənarda qalan Cənubi Azərbaycan şeirinin qeyd olunan dövrü ilə yanaşı, şeir ənənələri, folklor və novatorluq müstəvisində sistemli şəkildə nəzərdən keçirilir. Tədqiqatın predmeti isə müasir

Cənubi Azərbaycan şeiri və 1960-2005-ci illər ərzində keçdiyi yolun mənzərəsidir. Bu mənzərədə həm Cənub şeirinin inkişaf meylləri, həm müxtəlif poetik nəsillərin özünümüdafiə zamanı seçilən fərqli və oriqinal cəhətləri, həm də ayrı-ayrı şairlərin fərdi yaradıcılıq üslubları açıqlanır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Cənubi Azərbaycanın müasir şeirini, habelə onun inkişaf yollarını, mərhələlərini, janr, mövzu rəngarəngliyini araşdırmaq olmaqla yanaşı, tədqiq olunan dövrün şairlərini geniş oxucu kütləsinə tanıtdırmaq və ədəbiyyatda oynadıqları rolu aşkar etməkdir. Tədqiqatda poeziyanın ümumi inkişaf xəttinin müəyyənləşməsində mühüm rol oynayan folklorun təsiri araşdırılmış və novatorluq mənzərəsində vəhdət təşkil edən bu məsələlər elmi-nəzəri müstəvidə qiymətləndirilmişdir. Folklorla yanaşı klassiklərdən də bəhrələnən və təsirlənən şairlərin yaradıcılığı fərdi və qarşılıqlı müqayisə şəklində tədqiq və təhlil edilmişdir. Qeyd etdiyimiz məqsədlərə nail olmaq üçün dissertasiyada qarşıya aşağıdakı vəzifələr qoyulur:

- Tədqiq olunan dövrün sosial-siyasi durumunu təyin etmək və ədəbiyyat tarixində rolunu aşkarlamaq.
- Tədqiq olunan dövr sənətkarlarının əsərlərini təhlilə cəlb etmək, şairlər haqqında qısa məlumat vermək.
- Dövrün poetik nümunələrinin ideya-məzmun, janr istiqamətini müəyyənləşdirmək.
- Tədqiqata cəlb edilən şairlərin yaradıcılığında şifahi xalq ədəbiyyatı, folklor və klassik ədəbi ənənənin təsirini müəyyənləşdirmək.
- Mərsiyə ədəbiyyatına müraciət etmiş sənətkarların yaradıcılığını təhlil etmək.
- Satirik janrda yazılmış əsərləri tədqiqata cəlb etmək.
- Tədqiqata cəlb edilən dövrdə fəaliyyət göstərən sənətkarların yaradıcılığı müstəvisində M.Şəhriyar şeirinin yerini müəyyənləşdirmək.

**Mövzunun tədqiq tarixi.** Dissertasiyanın adından bəlli olduğu kimi, bu elmi tədqiqat işində 1960-2005-ci illər ərzində yazıb-yaradan şairlərin əsərləri tədqiq olunur. Yuxarıda göstərildiyi kimi, 1979-cu il İslam inqilabının qələbəsindən sonra İranda bu barədə heç bir elmi araşdırma işi aparılmamışdır. İran İslam Respublikasında və Azərbaycan Respublikasında, habelə başqa ölkələrdə nəşr olunan

kitab və jurnallarda bu məsələyə baxışlar ya ümumi xarakter daşımış, ya da təkcə bir neçə şairin əsəri elmi araşdırma mövzusu olmuşdur. Əlbəttə, təsadüfi hallarda nəşr olunan həmin əsərlər Azərbaycan və ya fars dillərində olmuşdur. Belə demək mümkünsə, bu cür araşdırmalar özəl xarakter daşımışdır.

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliyi ondan ibarətdir ki, müasir Cənubi Azərbaycan şeiri ilk dəfə olaraq sistemli şəkildə (Şimali Azərbaycanda bununla bağlı tədqiqatlar mövcuddur) tədqiqata cəlb edilmişdir. Tədqiqata cəlb edilən şairlərin və onların şeirləri, şeirlərin məzmunu, problematikası, ideya- məfkurəvi istiqaməti, janr rəngarəngliyi bu səviyyədə olduğu kimi geniş araşdırılmamışdır. Dissertasiyada Cənubi Azərbaycanın 45 ili əhatə edən dövrdə yaranan müasir şeirinin ideya-məzmunu, janr rəngarəngliyi araşdırılmış və Cənubi Azərbaycandan olan 75 şairin həyat və yaradıcılığı haqqında yığcam ümumi məlumat verilmişdir. Tədqiqat işində Cənubi Azərbaycan xalqının sosial-siyasi və mədəni düşüncəsini əks etdirən 45 illik dövrü əhatə edən ədəbiyyatı, mədəniyyəti, habelə folklorunun böyük bir hissəsi tədqiqata cəlb edilmişdir. Müxtəlif bölgələrdən toplanaraq təhlil edilən əsərlərin əksəriyyətinin müəllifinin bioqrafiyası haqda ilk dəfə olaraq məlumat verilmişdir. Şeirlər mövzulara müvafiq bölmələrdə toplandıqdan sonra, 7 mövzu üzrə qruplaşdırılmışdır.

Tədqiqat zamanı bədii ifadə vasitələri kimi təlmih, işarə, kinayə və digər janrlarda yazılan əsərlərin sənətkarlıq özgürlüyünə diqqət yetirilmiş, yeri gəldikdə klassik şeir nümunələri ilə qarşılıqlı müqayisələr aparılmışdır.

Tədqiqat işində 75 məşhur şairin həyat və yaradıcılığı haqqında yığcam ümumi məlumat öz əksini tapdığını nəzərə alaraq gələcəkdə hər bir şairin yaradıcılığının ayrıca araşdırılması üçün elmi baza rolunu oynaya bilər.

**Tədqiqatın metodologiyası.** Tədqiqat tarixi–müqayisəli ədəbiyyatşünaslığın prinsiplərinə və qazandığı uğurlara əsaslanır. Dissertasiyada tədqiqata cəlb edilən sənətkarların bədii əsərləri təhlil edilərkən elmi – nəzəri şərh sahəsində Azərbaycan və dünya ədəbiyyatşünaslığının zəngin təcrübəsdindən də bəhrələnilmişdir.

**Dissertasiya işinin nəzəri və elmi-təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, onun nəticələrindən müasir Cənubi Azərbaycan şerinin,

bütünlükdə Azərbaycan poetik fikrinin inkişaf mərhələlərinin və xüsusiyyətlərinin müəyyənləşdirilməsində, təhlilə cəlb edilib haqlarında məlumat verilən müəlliflərin yaradıcılıqıarının gələcəkdə daha ətraflı şəkildə araşdırılmasında, milli ədəbiyyat tarixlərinin, ali və orta məktəb dərsliklərinin yazılmasında, habelə ali və orta ixtisas məktəblərində xüsusi kursların tədrisində faydalanmaq olar.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işinin mövzusu Bakı Dövlət Universitetinin filologiya fakültəsində təsdiq edilmiş və "Müasir Azərbaycan Ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Tədqiqatın məzmunu ilə bağlı məqalələr, müxtəlif elmi toplularda İranda və Azərbaycanda nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı göstərilir, tədqiqatın elmi yenilikləri, məqsəd və vəzifələri, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

**"Lirik şeirin ideya və mövzu istiqamətləri" adlı I fəsil** 2 bölmədən ibarətdir. Bu fəsil dissertasiyanın başlıca prinsiplərini özündə əks etdirməklə yanaşı, digər fəsillər üçün istiqamətverici rol oynayır, bildiyimiz kimi lirik şeirdə şairin üslubu, özünəməxsus sənətkarlıq xüsusiyyətləri daha bariz şəkildə təzahür edir, poeziyanın əsas obyekti olan insan, onun fikri, hiss və duyğuları şairin qəlbindən, mühakiməsindən süzülərək kağıza köçürülür.Göstərilir ki, lirik poeziya (epik poeziyanın ziddinə olaraq) əsasən subyektiv daxili poeziyadır, şairin öz-özünü ifadə etməsidir. İctimai şeirin əsas məqsədi cəmiyyət və insanlara yol göstərməkdir. Bu növ şeirlərdə şair öz cəmiyyətinin maddi və mənəvi həyatının müstəqilliyini düşünür ki, cəmiyyəti dünya ilə uyğun və ayaqlaşa biləcək bir duruma gətirsin. Məşrütə dövrü Azərbaycan ədəbiyyatının dönüş nöqtəsidir və onu inqilabi ədəbiyyat adlandırmaq olar. Məşrütə dövrü ədəbiyyatın ölümsüz yaşamının başlanğıcıdır. Çünki bu ədəbiyyat, cəmiyyət və insanların istəkləri, əlaqələri və şəraiti ilə bir-birinə hörülmüşdür. Məşrütə dönəmində şeir böyük ictimai məsuliyyətini dərk etmiş və mühitdə, eləcə də cəmiyyətdə dəyişiklik törətməyə çalışmışdır.

İctimai mövqe və məsuliyyəti qəbul etmək bir sıra köhnə adət-ənənələrin uzaqlaşdırılmasına səbəb olur və bunların yerini yenilikçi istəklər alır. Bunun da nəticəsi insanın məqam və mərtəbəsinin yüksəlişi olmuşdur. Bu dövrdə inqilabi ədəbiyyat insanların oyanışına səbəb olurdu, ümumi bilginin yüksəlişi nəticəsində, onların sənətdən gözlədikləri də daha məntiqli və daha inqilabi olur. Tarix hələ məşrütə dövründə şairlərin, xüsusi ilə Mirzə Ələkbər Sabir, sonralar isə Möcüz Şəbüstərli, Məhəmməd Biriya, Səhənd və Sahirin oyanışına səbəb olan fəaliyyətlərini unutmamışdır. Odur ki, belə bir fikir irəli sürülür ki, müasir şeirin cövhərində, hər zaman məzmun birinci dərəcəli əhəmiyyətə malikdir. Bu məsələ lirik, realist, folklor və epik şeirlərdə bədii ifadəsini tapmışdır. Sahir, Dr. Nütqi və Səhərin ictimai lirikası və Səhənd, Barışmaz, Əlirza Oqtay və Hadi Qaraçayın realist məzmunlu şeirləri, Məftun Əmini, Şəhriyar və Sönməzin folklorik səmimiyyəti və Dr. Zehtabi və Hadi Qaraçayın şeirlərinin idealist ritmik epikliyi heç cür söylənilən qəliblərin çərçivəsinə sığmırlar, qəliblərə yenidən baxmağa, yenidən yozmağa başlayırlar. Bu təsrif, gerçəklikləri öz istilası altına salır və təhlilləri ilə əsaslı dəyişikliklərə nail olur. Məsələn, Səhəndə görə insanın mənəvi həyat fəlsəfəsinin sonuncu və yaradılış sisteminin real təmayülü vicdanın təkamülünü cəmiyyətdə genişlətmək və dərinləşdirməkdir. Belə olduqda insan ruhunu, istəklərini ödəməklə bərabər, başqalarının da varlığının sirrindən faydalanmağa səbəb olacaqdır.

**Birinci fəslin birinci bölməsi "Çağdaş şeirdə klassik poetik ənənə, folklor"** adlanır. Həmin bölmədə nəzərə çatdırılır ki, bütün dünya xalqlarında olduğu kimi, Azərbaycan xalqının ədib və şairləri də zəngin xalq ədəbiyyatına dərin hörmət bəsləmiş və ölməz əsərlərində şifahi xalq ədəbiyyatından, folklordan bəhrələnmişlər. Azərbaycan poeziyası məna və məzmununa, forma zənginliyinə, qədim və yaşar ənənələrinə, humanizminə görə dünya poeziyasında önəmli yer tutur. İfadə baxımından Azərbaycan xalqının ədəbiyyat nümunələri və janrları üç növə bölünür: mənzum, mənsur (nəsr), mənzum-mənsur. [1] Nizami Gəncəvi belə folklor və nağıllardan geniş

---

[1] يكاني زارع. پرويز. آذربايجان شفاهي ائل ادبياتينا بير باخيش. ناشر: انديشه نو. s.50, 51377

şəkildə bəhrələnən və onları yazılı ədəbiyyata gətirən şairlərdəndir. Bu baxımdan M.Şəhriyarın “Heydərbaba” poeması daha səciyyəvi xarakter daşıyır. Bu səbəbdən də dissertasiyada folklor ədəbiyyatından faydalanan şairlərin yaradıcılığına xüsusi yer verilmiş, qələmə alınmasında el ədəbiyyatından qidalanan bir sıra əsərlərdən nümunələr tədqiqata cəlb edilmişdir.

Güney Azərbaycan poeziyasında el ədəbiyyatı ilə daha çox məşğul olan, əsərlərində zaman-zaman şifahi xalq ədəbiyyatına müraciət edən, tanınmış sənətkarlardan biri *Nəsir Mehdi oğlu Payquzar*dır. Təbrizdə anadan olan, gənc yaşlarından şeir yazmağa başlayan gənc şair elə ilk şeirlərindən şifahi xalq ədəbiyyatına böyük maraq göstərmiş, ictimai və fəlsəfi baxışlarını xalqın anlaya biləcəyi tərzdə, şifahi xalq ədəbiyyatından bəhrələnərək yazmışdır. Azərbaycan türkcəsində böyük məharətlə cinaslar yazan, ictimai fikirləri sadə və aydın ifadə olunan Nəsir Payquzarinin fikir və duyğularını daha çox "Tarımın telləri", "Əşki şəm" (Şamın göz yaşları), Ballı bayatılar", "İpək xəyallar" və digər kitablarında toplanmış əsərlərində ifadə olunmuşdur. Qəzəl janrında yazmaqla bərabər, şair “Nəsir Azərbaycanın ucsuz – bucaqsız folkloru və məsəllərindən öz şeirlərində olduqca faydalanır və bu ibtikar (təşəbbüs) onun sözlərinə qüdrət və zənginlik bağışlayır...Onun qoşduğu bayatıların bir hissəsi sadə və bir hissəsi də "cinas" bayatılardandır. [1]

*Şair Əliəkbər Turabi (Həllacoğlu)* Belçika və Fransada təhsilini davam etdirən və Sarbonda etnoqrafiya üzrə fəlsəfə elmləri doktoru elmi dərəcəsini alan, Təbriz universitetinin professoru Həllacoğlu 30 il tədrislə məşğul olsa da, ömrü boyu tədqiqat və araşdırmalar aparsa da, çoxlu kitablar, elmi monoqrafiyalar müəllifi olsa da, poetik ənənələrimizi davam etdirən şairlər sırasındadır.[2]

Poetik ənənədən danışarkən şifahi xalq ədəbiyyatı və klassik ədəbiyyatımızla bərabər, çağdaş ədəbiyyatımızın klassikləri olan böyük sənətkarlardan təsirlənmələr diqqətdən qaçırılmamalıdır. Belə təsirlənmələrə istər Güney Azərbaycan, istərsə də Quzey Azərbaycan

---

[1] .آذربایجان عاشیقلاری.مبیّن.محمدحسین (شمشک) . انتشارات ارک.تبریز.1364.

[2] شیدا. يحيي. ادبيات اوجاغي. جلد 2. انتشارات نوبل. سال 1364

ədəbiyyatında yetərincə rast gəlinir. Bu mənada *şair Dəstpişin* şeirləri dilinin sadəliyi, lirizmi və vətənpərvərlik ruhuna görə S.Vurğunun poeziyasını yada salır. *Cəmşid Şeybani* də, Azərbaycan şifahi xalq ədəbiyyatından və milli ruhdan ayrılmamış və yaradıcılığında bayatı janrına daha çox müraciət etmişdir.

*Səhənd*in şifahi xalq ədəbiyyatından ruhlanaraq yazdığı "Sazımın sözü" və "Qardaş andı" əsərləri xalq ədəbiyyatı ilə zəngin olması ilə yanaşı türk millətinin qədimliyini, zəngin və qəhrəmanlıqlarla dolu tarixini əks etdirən əsərlər kimi o taylı bu taylı ədəbiyyat tariximizin qızıl səhifəsini təşkil etməkdədir. Poeziyada şifahi xalq ədəbiyyatına daha çox meyl edən "*Nəyyir*" təxəllüsü ilə məşhur olan *Nəyyir Şahkar xanım* tətbiqi elmlər üzrə ali təhsil almışdır, fars və Azərbaycan dillərində əxlaq, ictimai-ədəbi və lirik mövzularda da gözəl, dərin məzmunlu şeirlər yazmışdır. Şairin şifahi xalq ədəbiyyatından ruh alan şeirləri lirizmlə çulğalaşaraq ruh oxşayır.[1]

Cənubi Azərbaycan şeirində öz novatorluğu ilə yanaşı bayatılarımızı xatırladan əsərlərilə tanınan şairlərdən biri də *Möhsün oğlu Əyyub Zeynali*dir. Yuxarıda göstərilən müəlliflərin, həmçinin *Şahnaz Salehi*, *Qafar İbrahimi*, *Fəriba xanım və* digər şairlərin yaradıcılığı əsasında nümunələrə müraciət etməklə, belə bir ümumiləşmə aparmaq mümkündür ki, Güney Azərbaycan poeziyasının nümayəndələri yaşından, aldığı təhsildən asılı olmayaraq, yaradıcılıqlarında şifahi xalq ədəbiyyatına, klassiklərə daim müraciət edir, poetik ənənəni yaşadır, ədəbiyyatımızı zənginləşdirən nümunələr yaradırlar.

I fəslin **"İctimai-siyasi fəlsəfi lirika" adlı ikinci bölməsində** bu mövzuda qələmə alınmış şeirlər tədqiq və təqdim olunmuş, onların müəlliflərinin ictimai-siyasi və fəlsəfi mahiyyəti, poetik ədəbiyyatda yeri müəyyən olunmuşdur. Cənubi Azərbaycan poeziyasında ictimai-siyasi və fəlsəfi şeirin qədim tarixə sahib olması tədqiqata cəlb edilən şairlərin yaradıcılığı əsasında sübuta yetirilir.

Poeziya vasitəsilə xalqın istək və arzularını ifadə etdiyi üçün

---

[1] ادبيات اوجاغي. جلد 3. انتشارات مهد آزادي281.s. 1381

həbsə alınmış, sürgünlərə düşmüş *Mir Həbib Sahir* zülm və istibdadın qarşısında baş əyməmiş, öz qələmi ilə mubarizəsini davam etdirmişdir. [1]

Bu gün Güney Azərbaycanda yazıb-yaradan kifayət qədər qadın sənətkarlardan, onların bir çoxunun ictimai-siyasi fikrin formalaşmasında yaxından iştirak etməsindən, poeziyamıza öz töhfələrini vermələrindən də bəhs olunur.Göstərilir ki, belə qadın sənətkarlarından biri də Cənubi Azərbaycan poeziyasında ***"Səhər"*** ləqəbi ilə tanınan ***Ərdəbilli Həmidə Rəiszadə***dir. Müasir Azərbaycan xanım şairləri arasında gözəl, həssas, dərin məzmuna malik və simvollarla zəngin şeirlər yazmaqda tanınmış şairə şeirlərində yeni mövzular və orijinal ifadələr işlətməklə də seçilməkdədədir.

Dünya fəlsəfi fikir tarixində özünəməxsus yeri olan sufi fəlsəfəsi, İlahi eşqlə bağlı şeirlər tarixin müxtəlif dövrlərində yaşamış şairlərin istər dünyagörüşündə, istərsə də şeirlərində mühüm yer tutmuşdur. Həmin ənənə bu gün də davam etməkdədir. *Şəhrək, Bağban, Xoşxəbər, Hacibə xanım Məhbubə Möhsüni Xosrovşahid, "Məftun"* təxəllüslü *Yədullah Əmini, "Xoşməram"* təxəllüsü ilə məşhur olan *Qulam-Hüseyn Xoşmərami Nonbəri, "Məhzun"* təxəllüsü ilə şeirlər yazan *Məhəmmədəli Fəxrəddin, "Vilayi"* təxəllüsü ilə məşhur olan *Seyid Ruhullah oğlu Seyid Tacəddin Hüseyn Vilayi* kimi sənətkarların hər biri özünəməxsus dəst-xətti ilə yanaşı ictimai, siyasi, fəlsəfi lirik şeirlərdə klassik ənənələrdən, xalq yaradıcılığından bəhrələnərək müasir Cənubi Azərbaycan poeziyasına yeni nəfəs gətirə bilmişlər. Təsadüfi deyil ki, hansı dildə yazmalarından asılı olmayaraq (istər türk, istərsə də fars) şairlər müxtəlif mövzulara müraciət etsələr də mütləq həmin bədii parça ictimai-fəlsəfi məzmun daşıyır. Sadaladığımız xüsusiyyətlər şair *Şayiqin, Şahinin, Saqinin, Hüseyn Nəcəfinin, Düzgünün* və onlarla adını çəkmədiyimiz sənətkarların yaradıcılığında müşahidə edilir.

Dövrün aparıcı mövzuları sırasında təbii ki, vətən, ona məftunluq, onu tərənnüm ictimai-fəlsəfi şeirin ən önəmlisidir. Bu mənada *şair Rəsulinin* adını çəkmək məqsədəuyğun olardı.

*Hüseyn Nəcəfi* isə lirik, aşiqanə və məhəbbəti vəsf edən şeirlərin müəllifidir. Onun yaradıcılığında sanki real həyatla mistik

[1]Yenə orada,s.21

həyat arasında bir növ əlaqə yaranır, eyni zamanda bu şeirlərdə təsəvvüf ideyalarının təsiri görünməkdədir.

**"Dini, irfani və mərsiyə poeziyası"** adlı **üçüncü bölmədə** irfani mövzuda yazılmış şeirlər tədqiq və təqdim olunmuşdur. Fevral inqilabından sonra Güney Azərbaycan poeziyası yeni bir mərhələyə daxil olur. Bu mərhələ həm keyfiyyət, həm də kəmiyyətcə əvvəlkilərdən fərqlənirdi. İnqilabdan sonrakı dövrdən danışarkən poeziyada yenidən bərpa olunan dini mövzunu xüsusi qeyd etmək yerinə düşər. Filologiya elmləri doktoru, professor Almaz Əliqızı yazır ki: "Orta əsrlərdən davam edib, XIX əsrdə yüksək zirvəsinə çatmış dini şeirlər Məşrutə hərəkatı zamanı inqilab əhval-ruhiyyəli poeziyanın kölgəsində qalmışdı. Belə ki, Xiyabani üsyanının məğlubiyyəti ilə müvəqqəti dayandırılmış, azadlıq hərəkatından sonra isə artıq dirçələ bilməmişdi. Ölkəni avropalılaşdırmağa çalışan Rza xanın din əleyhinə apardığı qatı antiislam siyasəti, dini mövzuya meyli xeyli dərəcədə azaltmışdı. [1] Cənubi Azərbaycan şeirinin maarifyönlü movzularının bir sırası bunlardan ibarətdir: insansevərlik, ölüm və yaşayış, riyakarlıqla mubarizə, ananın özəlliyi, müəllimin məqamı, çalışmaqla qorxmazlıq, kişilik, dünyanın vəfasızlığı və sairə. Bu mövzuda yazıb yaradan şairlərin yaradıcılığı özünəməxsus keyfiyyətləri sadalanmaqla ümumi fonda tədqiq edilmiş, elmi nəzəri şərh edilmişdir. Məsələn, yaradıcılığında didaktik xarakter daşıyan "Fikri", əxlaqi-ictimai boyalı səpkilərlə poeziyaya rəng qatan böyük alim və tədqiqatçı Mirzə Məhəmməd Əli Müdərrisin oğlu *"Müdərris",* həm də *"Şəqayiq"* təxəllüsü ilə çap olunan bu şair Güney Azərbaycanda çox oxunur və sevilir.

Çeşidli mövzular, müxtəlif janrlar, yalnız türk deyil, həm də fars dilində yazan bu şairlərin dini irfani mövzuda yazdıqları şeirlərin əsas ideyası -Vəhdəti-vücud fəlsəfəsinin "mən"likdən xilas olub "biz" də yox olmağını, damcı olub dəryada əriyə bilmək - şeirdə özünü açıq göstərir. İstər ictimai və tənqidi qəzəllərlə diqqəti cəlb edən şair *"Şimşək"*, istərsə müxtəlif mövzularda özünü təsdiq edən *Əxlaqi,* istər hər iki dildə ictimai, siyasi, tərbiyəvi şeirlər yazan*"Qaflantı",* istərsə də şifahi xalq ədəbiyyatından ilham alan və

[1] Əliqızı Almaz. Güney Azərbaycan ədəbiyyatı: Mərhələlər, təmayüllər, etüdlər. Bakı, 1998, s.186.

sadə, səmimi şeirləri ilə sevilən *Murad Əli Qureyşi*, istərsə də irfani mövzu ilə yanaşı mərsiyə və ictimai mövzuda da şeirlər yazan *"Münim"* [1]olsun. Beləliklə, Azərbaycanın müasir şeirində özəlliklə inqilabdan sonra irfan mövzularına, bəhslərə və araşdırmalara xüsusi diqqət yetirilməsi aydın nəzərə çarpır. Ümumiyyətlə Cənubi Azərbaycan şairlərinin yaradıcılığını araşdırarkən irfani mövzuda şeir yazmayan çox az şairə rast gəlinir. İrfani mövzunun özünəməxsus dili olması səbəbilə şairlər də irfana məxsus olan ləfz, kəlmə və məzmunlardan faydalanırlar. Çağdaş poeziyanın aparıcı qüvvəsi olan sənətkarların hər birinin özəl yaradıcılıq üslubu, tə-sirlənmə qaynaqları mövcuddur. Məsələn, belə sənətkarlardan *Tulad Purradi, Yəqub Təqəvi Tuğani, Dərvişi, Qartalı, Gövhəri, Dirəfşini*, irfan şairi olmaqla yanaşı böyük tədqiqatçı "*Dərviş*", klassik qəzəl və sərbəst janrlarda şeir yazmağa üstünlük verən*"Qartal", "Gövhər"* təxəllüsü ilə məşhur olan *Məhəmməd Hüseyn Gövhərzay* və digərlərini göstərmək olar.

Məlumdur ki, İrfani bəhslərdə kəlmələr məcazi məna daşımaqdadır. Çünki, irfani dilin özünəməxsus rəmzi dili mövcuddur. Meyxanə Allaha ibadət yeri, şərab isə məşuqa çatmaqdan ötrü vəsilə, "şəm ilə pərvanə" Azərbaycan və fars ədəbiyyatında eşq və aşiqlik simvoludur. Pərvanələr, ariflər və saliklər (həqiqət yolu gedənlər) məşuqun vücudunun şəmi dövrəsinə dolanırlar. Nəhayət, aşiqanə yanıb məhv olurlar, amma eşq ilə irfan yolunu sabit saxlayırlar.

*Sən özün aqillərə divanəlik öyrətmisən,*
*Ta belə səhrayi heyrətdə gəzir divanələr.*[2]

Dini –irfani mövzuda şeir yazan sənətkarlar da, eyni bəhsdən yazmasına baxmayaraq, hər biri öz dəsti-xətti ilə seçilməkdədir. Məsələn, *Ustad Yəhya Şeyda*, türk ədəbiyyatının ən mühüm qollarından sayılan növhə janrında xüsusilə seçilən *"Nəyyir"* təxəllüslü *Mirzə Məhəmməd Təqi Hüccətülislam,"Abid"də*

---

[1] ادبيات اوجاغي. جلد 1. انتشارات نوبل. سال 1364., s,77

[2] شيدا. يحيي. ادبيات اوجاغي. جلد 3. انتشارات مهد آزادي. 1381. s,315

*Tacüşşüəra (Mövlanə Yətim)* yaradıcılıqları nümunələr əsasında nəzərdən keçirilmişdir.

*Ustad Seyyid Məhəmməd Hüseyn Şəhriyar* Təbrizdə dünyaya göz açmışdır. Lakin elə gənclik çağlarından başlayaraq insanların ruhunu və qəlbini fəth etdi. Şəhriyar klassik Azərbaycan və fars ədəbiyyatından mənəvi qida aldığı kimi, folklora, milli kökə bağlı idi. O həm də islam dini və mədəniyyətindən də su içdi. Elə bu xüsusiyyətlərinə görə də onu hamı sevdi və bəyəndi. Şəhriyar bütün mövzularda yazmış və uğur qazanmışdır. Dini mövzularda belə bənzəri olmayan poetik nümunələr yaratmışdır. Xüsusilə yaratdığı növhələr dil və məzmun tutumuna görə seçilməkdədir. Ümumiyyətlə, Təbrizin dəyərli şairlərindən bir çoxu növhə janrında dəyərli əsərlər yazmışdır. *"Məsumi"* təxəllüsü ilə məşhur olan *Seyid Həsən* indiyə qədər 15000 beyt mərsiyə ilə növhə yazmış və bu əsərlərilə İranda və Cənubi Azərbaycanda məşhurlaşmışdır.

*Gözüm oyan yuxudan bu nə xabi qəflətdir?*
*Məgər bu dəhr sənə cayi istirahətdir?*
*Qabaqda vardı sənin bircə qorxulu səfərin,*
*Onun tədarükünü gör nə qədri fürsətdir.*
*Bu bir səfərdi ki, hər kim gedib qayıtmayacaq,*
*Görər cəzasın o ki, əhli - nar o cənnətdir.*[1]

Şair bu şeirdə ömrümüzü "qəflət yuxusunda" sovurmamalı, Qiyamət səfərinə tədarük görməliyik deyə, öyüd-nəsihət verir. Bu şeirin ən yaxşı ibrət dərsi qəflətə düşməmək, fürsətdən (ömürdən) faydalanmaq, axirət səfərinə hazırlanmaqdır.

*Rəhim Müntəvi* isə fərqli olaraq, yaradıcılığını demək olar ki, yalnız dini irfani şeirlər yazmağa həsr edib. Qəsidə şairi kimi tanınan *" Sultani"nin* və *Hacı Sadıqin* də əsərlərinin çoxu tərbiyəvi və məzhəbi mövzularda yazılmışdır.

Cənubi Azərbaycanın müasir şairlərindən olan ***Mirzə Hüseyn Kərimi*** isə daha çox satirik şair kimi tanınmışdır.Onun yaradıcılığında M.Ə.Sabirin poeziya ənənələrindən bəhrələnmə

---

1 ادبيات اوجاغي. جلد 1. انتشارات نوبل. سال 1364

qabarıq nəzərə çarpsa da, orijinal bir şair kimi diqqəti cəlb edir.

Beləliklə, bura qədər gətirdiyimiz poetik nümunələrdən və elmi təhlildən aydın olur ki, Fevral inqilabından sonrakı mərhələdə Cənub poeziyasının inkişafı həqiqi mənada zəngin və çoxcəhətli olmuş, yeni mövzularla bərabər, dini mövzu yenidən dirçəlmiş, sənətkarlıq baxımından zəngin, orijinal poetik nümunələr statusunu daşıyan bu əsərlər insanları kamilliyə, düzlüyə, sədaqətə, imana çağırmış, onları mənəvi cəhətdən zənginləşdirmişdir.

**I fəslin "Satirik şeir" adlanan 4-cü bölməsində** satirik mövzuda şeirlər yazan sənətkarların yaradıcılığı tədqiqata cəlb olunmuşdur. Məlumdur ki, "Satira" kəlməsi yunancadır və latınca "satyros" kəlməsindən alınmışdır ki, o, da "satira" kökündəndir, və o da "satire"dən alınmışdır.[1]

Məşrutə dövrünün əvvəllərində tənqidi realizm sayağında "Molla Nəsrəddin"lə "Hophop"un düşməni titrədən və ifşa edən inqilabi satira məktəbinin təsiri özünü göstərmişdir. Hal- hazırda *Məcid Səbbağe (Yalqız), Həmid Arəşi Azad, Məhəmməd Riza Şövkəti, İmran Səlahi, Əli Ətaiyyə, Məhəmməd Hüseyn Təhmasibpur, Nəsir Payguzar, Həmid Səxa Mehr, Şiva* və bu kimi başqa şairlər satirik və ictimai tənqidi şeirlər yazırlar.

Satira ədəbiyyatının təsir dairəsi çox geniş olan Cənubi Azərbaycan ədəbiyyatında satiranın inkişafında «Molla Nəsrəddin» kimi dərgilərin mühüm rolu qeyd edilmiş və göstərilmişdir ki, həyat-da hökm sürən mənfiliklərə, xalqın məhrumiyyətlərlə dolu yaşayışına diqqəti cəlb edən satirik ədəbiyyat gülüş vasitəsi ilə kütləları ayıldıb onları öz haqları uğrunda ictimai mübarizəyə dəvət edirdi. Həmin dövrün ədəbiyyatının özəlliklərindən biri də onun dilinin aydınlığı olmuş, bu ədəbiyyatda yazıb yaradanların məqsədi hər kəsin anlayacağı sadə dildə yazmaq olmuşdur. Əlbəttə, həmin ədəbiyyat elə adını çəkdiyimiz səbəblərlə bu günə qədər yaşamına davam edib, öz içində bir sıra şərəfli yazıçıları böyüdüb boya-başa çatdırmışdır. Həmin yolun mahir davamçılarından biri də məşhur *"Məcid Səbbağe İrani"* olmuşdur. O, əsərlərini «*Yalqız*» təxəllüsü ilə yazmış və illər boyu ictimaiyyəti cəhalətdən uzaqlaşıb yenilənməyə səsləyir. Təbrizdə yaşayan şair Yalqız, Sabir ədəbi məktəbinin davamçıla-

---

[1] Əslani Məhəmməd Riza, həmin yerdə

rından olmaqla bərabər, həm də satira sahəsinin tanınmış şairlərindəndir. Şübhəsiz ki, M.Ə.Sabirin və «Molla Nəsrəddin» başda olmaqla satira məktəbində, digər tərəfdən isə Cənubi Azərbaycanda *Molla Cavad Müzənnab, Mirzəli Möcüz, Bayrəməli Abbaszadə (Hammal), Məhəmmədəli Manafzadə (Sabit), Cabbar Bağçaban, Mir Mehdi Etimad, Biriya, Həddad* və bu kimi nəhəng satirik şairlərin sırasında layiqli yer qazanmaq son dərəcə çətin və ağır işdir.

Müasir Cənubi Azərbaycan satirik şeirinin tanınmış nümayəndələrindən fars və türk dillərində şeirlər yazan *Azəri Azad* "Gül Ağa", "Məhdi Azadi", "Peyami Nur", "Əmin" və sairə mətbu orqanlarında Gül oğlan, Qızılbaş, Xandayi, Kürə başı uşağı, Araz və s. adlarla satirik şeir və məqalələr yazmışdır. Güney Azərbaycanın ən çağdaş şairlərindən olan *Şövkəti* isə mətbuatda çıxan ilk şeirlərindən sonra məşhurlaşmış və ədəbi ictimaiyyət tərəfindən qəbul olunmuşdu. Şair yalnız şeirlərlə deyil, yazdığı tənqidi və satirik məqalələri ilə də cəmiyyətin naqisliklərinə qarşı çıxır, xoşagəlməz halları və pis adətləri, cəmiyyətin dərin qatlarında baş verən yaramazlıqları qələmə almaqdan, xalqın gözünü açmaqdan usanmır. Çağdaş Güney Azərbaycan poeziyasında satirik qələmlərilə külüng çalanlar kifayət qədərdir. Həm satirik şair, həm satirik nəsr əsərləri yaradan *İmran Səlahi*, tənqidi və satirik şeirlərilə tanınan, sosial mühitdən daha çox yazan *Şəhrək, Nəccar oğlu*, bütün yaradıcılığını yalnız satiraya həsr etmiş Nəsir Paygüzarı və onlarla şairlər var ki, cəmiyyətin haqsızlığına, köhnə adət-ənənələrə həddən-ziyadə bağlı olanlara, hər zaman iti baxışları, sərt qələmləri ilə cavab vermişlər. *Şair Səxa* isə daha yaşlı nəslin bir vaxtlar müraciət etdiyi mövzulara qayıdır və İran şahının “Ağ inqilab” adlandırdığı dövrün mövzularını xatırlayır. Güney Azərbaycanın böyük satirik şairi *Həddad* da əsərlərində qondarma “mədəniyyət”ə qarşı çıxır, yad əxlaqın təqlidinə uymuş, özləri də hiss etmədən bu xəstəliyin daşıyıcısına çevrilən gənclərə müraciət etmişlər.

Tədqiq etdiyimiz poeziya nümunələrində diqqətimizi daha çox cəlb edən dil məsələsi oldu. Nümunələr əyani olaraq göstərir ki, Güney Azərbaycan poeziyasının inkişafında onun qazandığı ən yüksək nailiyyət şairlərin son illərdə daha çox ana dilində əsərlər yazmağa səy etmələridir. Bu sahədə dilin get-gedə saflaşması prosesini də qeyd etmək lazımdır. Yaradılan anadilli şeirlər çətin-

liklərə baxmayaraq, zaman-zaman dilimizin püxtələşməsində, inkişafında öz funksiyasını yerinə yetirməkdədir.

Dissertasiyanın 2 bölmədən ibarət **II fəsli “Epik poeziya, tarixilik və müasirlik”** adlanır. Fəslin **“Xalq tarixinin bədii salnaməsi”** adlanan **birinci bölmədə** Azərbaycan tarixinin bədii sənət nümunələrində əks olunması tədqiqat obyektidir. XX əsr ədəbiyyatımızı – xüsusilə poeziyamızı M.H.Şəhriyar, C.Cabbarlı, H.Cavid, B.Vahabzadə, M.Müşfiq, Savalan və Səhəndsiz təsəvvür etmək mümkün deyil. Adlarını çəkdiyimiz sənətkarlar zamanın bütün sınaqlarından alnıaçıq və üzüağ çıxdılar, zəmanənin nə soyuğu, nə şaxtası bu insanları əyə və sındıra bilmədi. Çünki onların dayağı xalq və xalq sevgisi idi.

Əlbəttə, hər dövrdə, hər məkanda olduğu kimi yazarların da arasında mövcud olan zəif iradəlilərin, şahlıq rejiminə boyun əyənlərin adları nə tarixdə qaldı, nə də xalqın ürəyində. Onların ədəbiyyata təsiri isə küləyin qovub apardığı buludun təsiri qədər oldu.

Güney Azərbaycan poeziyasının epik janrından danışarkən, yada öncə ustad M.H.Şəhriyar düşür. Onun şeirləri, xüsusən də “Heydərbabaya salam” poeması şairin köksündən baş qaldırdığı üçün ürəklərdə də yer tapır. Qeyd edək ki, Şəhriyar yaradıcılığı üç mənbədən qidalanır: 1) Klassik Azərbaycan və Şərq ədəbiyyatı; 2) Azərbaycan şifahi xalq ədəbiyyatı; 3) Islam mədəniyyəti və İslam dini.

Ustad Şəhriyarın “Heydərbabaya salam” dastanından sonra “Səhəndiyyə” türk dilində yazılmış və bədii cəhətdən ən mükəmməl əsərlərindəndir. Bu əsərdə məzmun və forma o qədər mükəmməl bir sintez yaratmışdır ki, geniş, epik lövhələrin təsviri şairin söz dünyası ilə qırılmaz bağlılıq yaradır. Bu şeir Azərbaycanın iki nəhəng şairinin bir-birinə yazılmış mənzum məktubu nəticəsində ərsəyə gəlib.

Səhəndiyyə sanki bəşər övladına çıraq olub ona düzgün yol göstərir. “...Günün, saatın “problemlərilə” uyudulmuş, curbəcür iclas, konfrans, plenum və qurultayların qərar-qətnamələrilə “ruhlandırılmış” sovet şairlərinin nə qədər əsərləri tarixin arxivinə göndərilməkdədir. Deməli, bu günə qapanıb qalmaq, sabahı nəzərə almamaq, gələcəksiz düşüncələr əsərlərin ucuzlaşmasına, günün, ayın sərhəddini keçə bilməməsinə səbəb olur. Halbuki, bəşəri problemləri, o cümlədən öz zamanının problemlərini həqiqi insani səviyyədə əks etdirən Nizami, Nəsimi, Füzuli, Cavid, Şəhriyar kimi

sənətkarların əsərləri əsrlərin, onilliklərin zaman adlı maneəsini hələ də müvəffəqiyyətlə yarmaqdadır. [1]

Çağdaş Güney Azərbaycan poeziyası ümumazərbaycan ədəbiyyatı kimi öz kökünü klassik ədəbiyyatdan almış, onun əsasında formalaşaraq, ərsəyə gəlmişdir. Diqqət yetirsək görərik ki, çağdaş poeziyada olan bəşəri duyğular, humanizm kimi xüsusiyyətlər zaman burulğanında əzilmədən və sınmadan bu günümüzə qədər cilalanaraq, gəlib çıxa bilmişdir. Xüsusilə klassik poeziyadan gələn epiklik bu gün də yaradılan əsərlərdə özünü göstərməkdədir.

Azərbaycan ədəbiyyatının klassiklərinin izləri hələ də bu yurdun ədəbiyyatına kölgə salmaqdadırsa, bu gün ədəbiyatımızı həmin dahilərin ürək qanı ilə becərən və bu ədəbiyatımıza əsaslanaraq yeni havada nəfəs almaq istəyən, eyni zamanda yenilik yaratmaq uğrunda addım atan sənətkarları da müsbət qiymətləndirmək lazımdır. Ədəbiyyata təzə nəfəs gətirmək cəhdi və yenilik yolunda addım atanlardan biri də *Həbib Sahir*dir. O, yaradıcılığa "Kənare abdan" adlı sərbəst şeirilə başlamış, qısa bir müddət ərzində Güney Azərbaycan poeziyasının aparıcı şəxsiyyətlərindən biri kimi tanınmışdır. Heç təsadüfi deyil ki, onun adı Səhənd, Savalan, Sönməz kimi şairlərlə yanaşı çəkilir. Şairin türk və fars dilində onlarla kitabı Güney Azərbaycan poeziyasının ən qiymətli xəzinəsi sayılır.[2]

Güney Azərbaycan poeziyasında epik janra müraciət edən şairlər sırasında *Bulud Qaraçorlu Səhəndi* xüsusi qeyd etmək lazımdır. İlk yaradıcılıq illərində "*Razi*" təxəllüsü ilə şeirlər yazsa da sonralar Səhənd kimi məşhurlaşdı. Təsadüfi deyil ki, Şərqin böyük şairi ustad Şəhriyar da "Səhəndiyyə" adlı mənzum məktubunda şair Səhəndi Səhənd dağı ilə müqayisə edərək ona yüksək qiymət vermişdir. Azərbaycan ədəbiyyatı tarixində şairlər cərgəsində daha çox milliliyi ilə seçilən Səhənd həm də mübarizələrlə dolu bir həyat yaşamışdır. Elə bu səbəbdən də dəfələrlə həbs edilmiş, zindanlarda olmuş, lakin yaradıcılığından da geri qalmamışdır. Bir vaxtlar Təb-

---

[1] Əliqızı Almaz. Güney Azərbaycan ədəbiyyatı: Mərhələlər, təmayüllər, etüdlər. Bakı, 1998,s.215

[2] شيدا. يحيي. ادبيات اوجاغي. جلد 2. انتشارات نوبل. سال 1364 .S,281

rizdə fəaliyyət göstərən “Şairlər məclisi”nin də fəal üzvlərindən olmuşdur. Səhənd Güney Azərbaycan poeziyası üçün xüsusi önəmə sahibdir. Şairi ədəbiyyatımız tarixində ən çox məşhurlaşdıran isə onun “Kitabı- Dədə Qorqud” dastanına müraciət etməsi oldu.

Son dərəcə milli şair olan Səhəndin türkün müqəddəs dastanına müraciət etməsi təsadüfi deyildi. Bu dastanları o zaman Bəsri Qoculla Niyazi Gəncosman oğlu yazıya alıb nəzmə çəkmişdisə, Azərbaycan ədəbiyatında yalnız Səhənd öz xəyal qaynaqlarına dayanaraq onu nəzmə çəkdi. Dastanın 6 boyunu nəzmə çəkdikdən sonra onu iki cilddə "Sazımın sözü" adlı kitabda çap etdirmişdi. Burada Dəli Domrul, Buğaç, Qanturalı, Qaracıq çoban, Bəkil oğlu İmran, Təpəgöz boyları nəzmə çəkilmişdir. Onun şeirlərində Dədə Qorqud ağsaqqal kimi göz önündə dayanır, xalqına öyüd verir, düz yol göstərir, dar günlərində onlara dayaq olur. Bu mövzu Səhəndin yaradıcılığına vüsət və əzəmət verdi.

Ədəbiyyatımızın zənginləşməsində qadın şairlərimizin də xidməti danılmazdır. Söz, sənət tariximizə nəzər salsaq Məhsəti Gəncəvi, Xurşidbanu Natəvan, Ağa bəyim ağa və bir çox qadın şair və yazıçılarımızın hər birinin öz dövrlərinin nəhəngləri olduqları aşkarlanır. Bu məsələdə onların incə təbiətə, incə yaradılışa, duyğuya malik olmaları xüsusi rol oynadıqları bir daha diqqətə çatdırılaraq, göstərilir ki, Güney Azərbaycan ədəbiyyatında Səhər təxəllüsü ilə tanınan *Həmidə Rəiszadə* özünəməxsusluğu ilə bərabər adını çəkdiyimiz qadın şairələrin cərgəsindədir. İlk şeir toplularından başlayaraq yazı və danışıq dillərini birləşdirərək yeni ədəbi dil ilə oxucularına müraciət etdi. Beləliklə, əski türkcə ilə tanış olmayanlar bu yeni yaranan dilə maraqlarının artması sayəsində oxucuların sayı artdı. Beləliklə, Əslən Ərdəbilli olan Səhər ilk dəfə olaraq ədəbiyyatımızda müasir şeirə yenilik gətirdi. Bu səbəbdən də onun yaradıcılıq dövrü Cənubi Azərbaycan ədəbiyyatında yeni bir dövr sayıla bilər. “Mavilər”, “Yaşıl mahnı”, “Aylı baxış”, “Bir dəstə təzə günəş”, "Hikayəte dürr" və sair topluları dediklərimizə sübutdur. Səhər xanım "Mavilər" şeir toplusunda folklor və əski formalarda deyilən və yazılan düşüncələri yeni baxışlarla sintez edərək köhnə qəliblərdə yeni düşüncə, yeni baxış yarada bilmişdir.

**İkinci fəslin ikinci bölməsi “Çağdaş gerçəklik poetik həqiqət işığında” adlanır.** Bu bölmədə göstərilir ki, İran İslam

İnqilabının xalqa demokratik azadlıq verməsi nəticəsində türkcə əsərlərin sayı artmağa başladı. Bir cəbhədə toplananlar şaha qarşı mübarizəyə çağırmaqdan əlavə, həm də onu ifşa edir, satira qələmi ilə qamçılayırdılar. Haşım Tərlanın Məhəmməd Rza şahın dilindən qələmə aldığı "Görürəm" şeiri 37 illik diktatorun şəxsində Pəhləvi xanədanının iç üzünü açır.

Güney Azərbaycan poeziyasında müharibə mövzusunun araşdırılması bir daha göstərdi ki, "Müharibənin mahiyyətindən asılı olmayaraq, bədii ədəbiyyat da bu hadisəyə öz münasibətini bildirməyə başlamışdı. Cənubi Azərbaycan poeziyası artıq tamamilə yeni bir mövzunun – müharibə mövzusunun işlənməsilə öz inkişafında yeni keyfiyyət, yeni məzmun kəsb etmişdi. Ara müharibələrini, tayfalararası çəkişmələri, milli münaqişələri, Rza xanın qanlı mərkəzləşdirmə siyasətinin acı nəticələrini təcəssüm etdirmiş poeziya ilk dəfə idi ki, Təbrizin və İranın bir sıra qədim, zəngin şəhərlərinin müasir təyyarələrdən bombalanmasını təsvir məcburiyyətində qalırdı". [1]

İnqilabın qələbəsi, xalqın igid övladlarına sonsuz sayqı və hörmət, inqilabın qalib gəlməsində Xomeyninin bacarığı, inqilabın əsas mahiyyəti və onun cəmiyyətə gətirdiyi yeniliklər *Zülfüqar Kəmali, Müjgan xanım Xoşnəvaz, Bariz, Barışmaz, Əyyub* və digər şairlərin poetik nümunələrində ifadə olunmuşdur. Yaradıcılığında daha çox milliliyə və eyni zamanda Azərbaycan şeir vəznində yazmağa üstünlük verən şair *Haşım Tərlan*ın şeirləri sosial və ictimai xarakterlidir. Bakıda anadan olan, sonra ailəsilə birlikdə Sərabin Zəncilabad kəndinə, oradan da Tehrana köçən şairin şeirlərində vətənpərvərlik və humanist hisslər üstünlük təşkil edir. *Bariz*in şeirləri isə daha çox sentimentallığı, duyğusallığı ilə fərqlənir. Lakin o, cəmiyyətdə baş verən hadisələrə də biganə deyil.

Tədqiqata cəlb edilən şeir nümunələri bir daha göstərir ki, Güney Azərbaycan poeziyası, müxtəlif eniş-yoxuşlardan, dil problemindən, ictimai-siyasi proseslərin bolluğundan, hər cür çətinliklərdən keçməsinə baxmayaraq, bütün qadağaları, maneələri aşaraq, uğurla mütərəqqi təkamül yolu keçmişdir. Bütün deyilənlərə

[1] Əliqızı Almaz. Güney Azərbaycan ədəbiyyatı: Mərhələlər, təmayüllər, etüdlər-Bakı: 1998,s.181-182

əlavə olaraq dilin saflaşması prosesini də xüsusi qeyd etmək lazımdır. Nümunələr əsasında yaradıcılıqları tədqiq və təhlil edilən Şəhriyarın, Sahirin, Səhəndin və digər gənc şairlərin, xüsusilə anadilli yaradıcılığı bu poeziyanın ən böyük uğuru kimi dəyərləndirilir.

İşin "**Nəticə**" hissəsində aparılan tədqiqat zamanı əldə olunan qənaətlər ümumiləşdirilmişdir. Belə ki, tədqiqat işi Cənubi Azərbaycan poeziyasının keçən 50 ildə yaranan böyük bir hissəsini özündə cəmləşdirmiş, Cənubi Azərbaycanın müasir şeiri, inkişaf yolları araşdırılmış, məzmunu açıqlanmış, müasir şairlərin yaradıcılığında şifahi ədəbiyyatın, klassiklərin yaradıcılığının təsiri, yeri, onlardan istifadə məqamı aşkarlanmaqla qarşılıqlı müqayisələr aparılmış, bəzən elmi tövsiyələr verilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

**Kitablar**

1. Qadınların şəxsiyyəti. Divanə Pərvine E'tesami və Şəhriyarın divanında. Təbriz, Simazər nəşriyyatı, 1998, 135 s.

2. İdari məktubların yazılmış forması: Dərslik, 2000, 85 s.

3. Min məsəl və oxşar dörd dildə. Ərəbcə, türkcə, farsca, ingiliscə. Təbriz: Əxtər nəşriyyatı, 2014, 445 s.

4. Uşaq folkloru. Təbriz: Əxtər nəşriyyatı, 2014, 120 s.

**Məqalələr**

1. Məsnəvi Muləvidə elmin əhəmiyyəti // Mehdi Azadi gündəliyi, Təbriz: Təbriz Universiteti, 2006, s. 123-125

2. Şəhriyarı şeirinə yeni bir baxış // Mehdi Azadi gündəliyi, Təbriz: Təbriz Universiteti, 2007, № 4334, s. 6-8

3. Dini və irfani mövzular Şəhriyarın divanında // Məhdi Azadi gündəliyi, Təbriz: Təbriz Universiteti, 2007, s.

4. Gəlmişəm məzlumun ahın çevirəm tufanə // Dil və ədəbiyyat (beynəlxalq elmi nəzəri jurnal). Bakı, 2008, s.148-150

5. İrfani bəhslər Azərbaycan şairlərinin şeirində // Körpü jurnalı, İran, Təbriz, Bahar fəsli, 2009, № 54, s. 32

6. İrfani bəhslər Azərbaycan şairlərinin şeirində // Körpü jurnalı, İran, Təbriz, Yay fəsli, 2009, № 55, s. 50 (ikinçi hissə)

7. Ənənəvi mərsiyə ədəbiyyatına qısa bir baxış // Körpü jurnalı, İran, Təbriz, 2009, № 60, s.30-32

8. Güney Azərbaycan ədəbiyyatı tədqiqatçıları folklor haqqında // Dil və ədəbiyyat (beynəlxalq elmi nəzəri jurnal). Bakı, 2009, s.169-171

9. Çağdaş Azərbaycan satirik şeiri // Körpü jurnalı, İran, Təbriz, 2011, № 61, s. 54

10. Müasir Cənubi Azərbaycan (İran) şeirində. İctimai-siyasi fəlsəfi lirika // Dil və ədəbiyyat (beynəlxalq elmi nəzəri jurnal). Bakı, 2012, s. 132-137

11. Çağdaş Güney Azərbaycan (İran) poeziyasında dini mövzu // Folklor məsələləri, 2012, № 3, s. 850-857

12. Azerbaijani people's oral literature in contemporary poets' poems. // Kültür Evreni, Türkiyə, 2012, Yaz, say 12, s. 165-173

**А.Р.Алинджаг**

# СТИХОТВОРЕНИЕ СОВРЕМЕННОГО ЮЖНОГО АЗЕРБАЙДЖАНА (ИРАНА) (1960-2005)

Эта диссертация, написанная на тему «Стихотворение современного Южного Азербайджана (Ирана) (1960-2005)», что-то новое о поэзии Южного Азербайджана, которое не было исследовано из-за определенных причин.

Научно-исследовательская работа включает недавнюю 50 летнюю "Южную Азербайджанскую Поэзию и исследует пути развития современного стихотворения Южного Азербайджана, раскрывает содержание поэзии, влияние классики на современных поэтов и сравнение их литературной деятельности.

Литературная деятельность поэтов, которые писали стихи на различные темы и жанры была включена в исследование, а также авторские мысли были подтверждены на основе литературных произведений.

Особая часть была посвящена таким гениальным мастерам слова, как Шахрияр, Саханд и Сахир, которые отличались по их великолепным произведениям в литературе Южного Азербайджана и оказали большое влияние на других и в их слова искусства проникли исследования и анализы.

Первая глава и ее четыре подразделения имеют дело с большими исследованиями современной поэзии Южного Азербайджана и фольклора Южного Азербайджана и его связи с народным искусством.

Во второй главе исследована эпическая поэзия с исторической и современной точки зрения как отражение истории народного стихотворения.

По пути развития поэзии Южного Азербайджана, автор пришел к выводу, что поэзия может сохранить свои национальные, религиозные ценности и традиции.

На основании литературных и художественных образцов, автор показывает и доказывает, что традиции не могут быть препятствием для современного, нового стихотворения. Получая выгоды от классической поэзии, сегодня поэты пишут стихи еще в свободном жанре наряду с традиционным жанром. В результате исследования можно сделать такой вывод, что особенно после революции, большое место в поэзии Южного Азербайджана было дано религиозным темам, дискуссиям и исследованиям. Темы Поэзии Южного Азербайджана включают: благотворительность, стремление к разводу, смерти и жизни, борьба против лицемерия, материнские осоменности, авторитет учителя, любовь к труду, трудолюбие, смелость, мужество (или мужественность), нелояльность мира и веру в него.

Таким образом, несмотря на спокойствие поэзии Южного Азербайджана в течение какого-то периода, из-за некоторых политических процессов, она всегда была в прогрессе и драгомане людей. Принимая во внимание социальные потребности людей, мастера главным образом принесли с собой новые темы в поэзию.

А также сегодня Поэзия Южного Азербайджана развивается, преодолевая все препятствия, и язык в настоящее время очищается в связи с работой мастеров писавших на азербайджанском языке.

**A.R.Alinjaq**

## MODERN SOUTH (IRAN) AZERBAIJAN POETRY (1960-2005)

This dissertation written on the topic "The poem of Modern South Azerbaijan" is something new about The South Azerbaijan poetry which has not been investigated because of definite reasons. The research work has included the last 50 years' South Azerbaijan Poetry and investigated development ways of modern South Azerbaijan poem, explained the content of the poetry, classics' influence on modern poets and comparisons between their literary activity.

The literary activity of the poets who wrote poems in different themes and genres were engaged to the investigation, as well as the author thoughts were confirmed on the basis of literary works

Special part was dedicated to the genius masters of word as Shahriyar, Sahand, and Sahir who were differentiated for their splendid works in South Azerbaijani literature and had a great influence on others and their word art has been filtered by investigations and analysis.

The first chapter and its four subdivisions deal with the large investigation of modern South Azerbaijan poetry and folclore of the South Azerbaijan and its relation with folk art.

The second chapter has investigated the epic poetry from the historical and modern point of view as the reflection of folk poem history.

Following the ways of development of the South Azerbaijan Poetry, the author came to conclusion that this poetry could preserve its national and religious values, keep its traditions alive. On the basis of literary and artistic samples, the author shows and proves that no tradition can be a barrier to the modern, new poem. Deriving benefits from classical poetry today poets write even in a free genre along with the traditional genre.

As the result of the investigation can be made such conclusion that particularly after revolution, a large place in the South Azerbaijan Poetry was given to religious themes, discussions and investigations. The content of the themes of the South Azerbaijan Poetry are : philanthropy, longing for divorce, death and life, struggle against hypocrisy, maternal features, authority of the teacher, love for labour, diligence, courage, manhood (or masculinity), disloyalty of the world and belief in it.

Thus, despite the calmness of South Azerbaijan poetry for some period, because of some political processes it was always in progress and dragoman of people. Taking into consideration the social demands of people, masters mostly brought new themes to the poetry.

And also today the South Azerbaijan Poetry develops overcoming all obstacles and the language is being polished due to works of masters wrote in Azeri language.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**АЛИАКБАР РАДПУР АЛИНДЖАГ**

# СТИХОТВОРЕНИЕ СОВРЕМЕННОГО ЮЖНОГО АЗЕРБАЙДЖАНА (ИРАНА) (1960-2005)

**5716.01 – Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ – 2014**